**AZƏRBAYCAN RESPUBLİKASI**

**MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**
**ELMİ-METODİKA ŞÖBƏSİ**

**Şair, dramaturq Zeynal Xəlilin 100 illik yubileyi**

**münasibətilə**



# “Şair olmaq istədim mən...”

**(metodiki vəsait)**

**B A K I – 2014**

## Tərtibçidən

Danılmaz bir həqiqətdir ki, hər bir insanın öz dünyası var. Hər kəsin qəlbinə bir dünya sığır. Biz bu dünyanı özümüzlə yaşadırıq, biz bu dünyanı özümüzlə aparırıq. Müasir Azərbaycan poeziyasının tanınan simalarından olan Zeynal Xəlil də zəngin mənəvi dünyaya malik bir şair idi. Özünəməxsus yaradıcılıq yolu, gərgin sənət axtarışları şairin qələmini günü-gündən püxtələşdirmiş, onu şeirin keşməkeşli yollarında öz yeri, öz çəkisi olan şairlərdən biri etmişdir.

Zeynal Xəlil öz dünyası olan bir insan, öz taleyi olan bir şair idi. O, XX əsrdə yaşayıb yaratdı. Amma əsl poeziya, əsl sənət əsəri üçün zaman həddi, zaman sərhədi olmayıb, yəqin ki, bundan sonra da olmayacaqdır. Zeynal Xəlil xoşbəxt şairlərdəndir ki, zəngin poeziyası ona da belə bir ölməzliyi bəxş etmişdir.

**Redaktor:** **Şəhla Qəmbərova-F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru**

**Tərtibçi:** **Könül Səmədzadə-F.Köçərli adına Respublika Uşaq Kitabxanası Elmi metodika şöbəsinin baş kitabxanaçısı**

**Korrektor:** **Ruhiyyə Məmmədli-F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi-metodika şöbəsinin müdiri**

# B Ö L M Ə I:

## Həyat və yaradıcılığı:

*Ən yüksək zirvəyə qalxmaq üçün mən*

*Bir cığır istədim ömrüm uzunu.*

*Yorulub yollarda qalsam da bəzən*

*Qoy onun heç yerdə olmasın sonu.*

XX əsr Azərbaycan poeziyasının görkəmli simalarından olan Zeynal Xəlil özünəməxsus yaradıcılığı ilə seçilən, həyatın keşməkeşli yollarında ağır sınaqlarla üzləşən, qalib çıxan ilhamla yazıb-yaradan, təravətli əsərləri ilə rəğbət qazanan, ədəbiyyatımızda imzasını əbədi həkk etdirən maraqlı bir şair ömrü yaşayıb. Cəmi 59 il ömür sürmüş bu şairin poetik dünyasında hər fəslin öz rəngi duyulmaqdadır. Erkən çağlarında üzləşdiyi yetimliyin çətinliklərini, həyatı boyu zamanın bütün ağırlığını, ictimai-siyasi, çəkişmələrini, 1937-ci ilin repressiyalarının törətdiyi fəlakətin vahiməsini, ikinci Dünya müharibəsinin soyuq səngərlərinin fəsadlarını varlığından keçirərək həmişə özünü məğrur, qürurlu aparmağı, poeziyasının baş qəhrəmanı olan insani məhəbbətlə vəsf etməyi bacardı.

Hər şeydən öncə Zeynal Xəlil dövrünün övladı idi. Əgər o, bir tərəfdən insanın daxili aləmi, yüksək amallar uğrunda mübarizəsi barədə yazırdısa, digər tərəfdən XX əsrin diktəsi, tələbləri də bi şairin yaradıcılığında öz əksini göstərirdi. Zeynal Xəlil XX əsrin ən gözəl lirik şairlərindən biri idi. Onun qələmindən çıxan məhsul çoxcəhətli həm də bu gün öz əhəmiyyətini itirməyən, oxucuların, tamaşaçıların marağını, zövqünü oxşayan poemalar, pyeslər olmuşdır.

Zəngin yaradıcılığa malik olan Zeynal Xəlil öz əsərlərində Azərbaycanın poetik tablosunu çox əlıvan yaradıb. Şairin bütün

müşahidələrinin, poetik münasibətlərinin, mərkəzində insan və onun arzuları dayanırdı. Adi yarpaqdan yazanda da, çiçəyə, quşa nəğmə qoşanda da, xarüqələr yaradan əməkçinin zəhmətini tərənnüm edəndə də çox sevdiyi qəhrəmanını –insanı unutmayıb:

**Mən yarpağa nəzər saldım,**

**Şaxta vurmuş, gün döymüş,**

**Çöhrəsi damar-damar.**

**Yerdən, göydən soruşdum,**

**Dedim, səhər yelinə:**

**Burada nə hikmət var?**

**Deyin, neçin bənzəyir**

**Yarpaq insan əlinə?**

Zeynal Xəlil 1914-cü ildə Gəncə şəhərində sənətkar ailəsində doğulub. O, şeirlərinin birində öz tərcümeyi-halını belə dilə gətirir: “Atam papaqçıydı, varı, yoxu bir qəlib idi bir də iynə. Hər zaman öz şeirlərində ağrı və məhəbbətlə atasını yad edən Zeynal Xəlil yeddi yaşında ikən atasını itirib. Böyük qardaşlarının himayəsində yaşayan şair əvvəl yeddiillik orta məktəbi, sonra isə peşə məktəbini bitirmişdir. Erkən əmək fəaliyyətinə başlayan Zeynal Xəlil 1932-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakultəsinə daxil olmuşdur. Şeirə, sənətə olan həvəsi hələ tələbəlik illərindən özünü büruzə vermiş “Yeni kənd” adlı ilk şeirini də məhz bu vaxtlarda yazmışdır. Bir-birinin ardınca yazılan şeirləri “Gənc işçi”, “Ədəbiyyat qəzeti” və digər mətbuat orqanlarında çap olunmağa başladı. Şairin 1934-cü ildə Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən buraxılmış ilk şeirlər kitabı “İstək” göstərdi ki, ədəbiyyata öz mövzusu, nəfəsi, yazı manerası olan bir şair gəlmişdir. Bundan sonra Zeynal Xəlil çətin axtarışlar yolu ilə getdi, daha maraqlı və rəngarəng əsərlər yaratdı. Onun “Tarac” (1936), “Poemalar”, “Qılınc” (1940), “Tatyana” (1942) kimi kitabları oxucularda böyük maraq və hüsn-rəğbət oyatdı.

Şairin bir-birinin ardınca çıxan “Düşüncələr”, “Etibar”, “Arzular”, “İki dünya”, “Lalə”, “Bənövşə”, “Şeirlər”, “Ulduzlar”, “Seçilmiş şeirlər və poemalar” və bu kimi onlarla kitabları haqlı olaraq bütün Azərbaycan ədəbiyyatının müvəffəqiyyəti kimi qiymətləndirilir. Zeynal Xəlilin “Ulduzlar”, “Fədai”, “Şah və qarışqa”, “Koroğlunun qocalığı”, “Gülər”, “Səməd Vurğunla görüş” poemalarını da bu siyahıya daxil etsək və bu əsərləri diqqətlə nəzərdən keçirsək şairin ümumi mənzərəsini görərik.

Zeynal Xəlilin yaradıcılığı demək olar ki, tarixi qəhrəmanlıq keçmişimizdən tutmuş (“Koroğlunun qocalığı), inqilabi keçmişimizə (“Qatır Məmməd”), Böyük Vətən müharibəsinə (“Tatyana” poeması və bir sıra şeirlər) və lap son günlərə qədər əhatə edir.

Şairin qələmə aldığı şeirləri də oxucular tərəfindən həmişə rəğbətlə qazanmışdır. Bunun isə səbəbi onun şeirlərindəki istilik, ürəyə yatımlılıq, coşqun ehtiras və lirik əhval-ruhiyyədir.

Bir sözlə Zeynal Xəlilin bir dramaturq kimi ədəbiyyatımızın inkişafında xidmətləri çoxdur. Onun ilk pyesi  “İntiqam” bir çox teatrlarda tamaşaya qoyulmuş və müvəffəqiyyət qazanmışdır. Belə əsərlərdən biri  də uzun zaman səhnədən düşməyən “Qatır Məmməd” pyesidir. Bu əsərin səhnə həyatı çox uğurlu olub. Elə bu səbəbdən də həmin dramın motivləri əsasında bədii film də çəkilib. Bu filmin ardınca ikinci Dünya müharibəsi illərində döyüşçülərin qəhrəmanlığını tərənnüm edən əsərləri “Yəhərləyin atları”, “416”, “Döyüşçünün vəsiyyəti” kimi şeirləri, “Tatyana” adlı poeması dillər əzbərinə çevrilib. Zeynal Xəlilin qələmə aldığı əsərlər bir sıra xarici dillərə tərcümə olunmuş və onun rus və Avropa ədəbiyyatından etdiyi tərcümələr həmişə  diqqətə layiq olmuşdur. Bir sözlə Zeynal Xəlil dövrünün söz sahiblərindən idi.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, şeirləri, poemaları sevilə-sevilə oxunan, pyesləri tamaşaçıların hüsn-rəğbətini qazanmış Zeynal Xəlilin bu il 100 yaşı tamam olur. Gəlin Zeynal Xəlil yaradıcılığına bir daha müraciət edək.

## B Ö L M Ə II:

## Yubiley tədbirlərinin keçirilməsi.

Şairi tanımaq üçün bəzən onun əsərləri kifayət eləmir. Hərdən gözündən qaçan bir şey olur və ya sənə çatmayan hiss duyğu olur. Burada şair haqqında yazılan yazılar, deyilən fikirlər köməyə gəlir. Hər bir şairin tərcümeyi-halı, yaradıcılığı haqqında yazılan məqalələr, kitabları haqqındakı resenziyalar onun hərtərəfli səciyyələndirilməsinə kömək edir. Bəzən şübhəli qaldığın bir məsələni aydınlaşdırmaqda da bu yazılar böyük rol oynayır. Zeynal Xəlilin ömrü qısa olsa da, ömür yoluna nəzər salanda, dolu bir həyatla qarşılaşırsan.

Beləliklə, zəngin yaradıcılığa malik olan Zeynal Xəlilin bu il 100 yaşı tamam olur. Bu münasibətlə respublikamızın bir çox təhsil ocaqlarında kitabxanalarda, məktəblərdə, lisey və gimnaziyalarda bir sözlə mədəniyyət ocaqlarında Zeynal Xəlil yaradıcılığını yaxından izləmək üçün bir sıra tədbirlər planı hazırlanmışdır. Belə tədbirlər planı F.Köçərli adına Respublika Uşaq Kitabxanasında da hazırlanmışdır. Zeynal Xəlil yaradıcılığını yaxından izləmək üçün kitabxanada sərginin təşkil olunması daha vacibdir. Sərgilər müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn, "Zeynal Xəlil-100", Əsrim, taleyim mənim", "Şair olmaq istədim mən...", "Unudulmaz şair Zeynal Xəlil" və s. "Zeynal-Xəlil-100" adlı sərginin nümunəsini veririk.

1. **Başlıq: "Zeynal-Xəlil-100"**
2. **Görkəmli insanların Zeynal Xəlil haqqında söylədikləri sitatlar.**
3. **Kitablarının nümayişi.**
4. **Dövrü mətbuatda nəşr olunan materialların kartotekası.**
5. **Şeir parçası.**
   **Qabağımda qara dəniz,**
   **Ürəyimdə dəli Xəzər;**
   **Ayrılaraq bu yerlərdən**

**Könlüm yenə uçub gəzər**
**Öz obamı, öz elimi**
**Dinləyirəm içimdə mən**
**Öz nəğməmi, öz dilimi.**

**Sitatlar:**

1. **Əsl şairlərin yaradıcılığı adətən xalqının taleyidir, bədii ensiklopediyasıdır, bioqrafiyasıdır. Ötən əsrdə yaşayıb yaratmış Zeynal Xəlil kimi şairlərimizin tədqiq edilməsi, öyrənilməsi həm də Azərbaycan tarixinin müəyyən bir dövrünə işıq salınması deməkdir!**

   **Flora Xəlilzadə**
   **Jurnalist**

2. **Zaman keçib, illər ötdükcə Zeynal Xəlil poeziyası daha isti, daha şirin görünür. Çünki, bu poeziya insana və onun daxili aləminə hər vaxt yaxın olub. İnsan isə heç vaxt yaxın olanı unutmur. Sözün həqiqi mənasında Zeynal Xəlil poeziyası yaşarı poeziyadır.**

   **Taleh Həmid**
   **Jurnalist, şair**

3. **Zeynal Xəlilin humanist, müasirlərimizi, düşündürən, yaşadan ideyalarla qidalanan əsərləri, Azərbaycan poeziyasının bir çox müsbət keyfiyyətlərini, qabaqcıl ənənələrini davam etdirən şeirləri öz həyat gücünü, ideya-estetik təsirini bu gün də itirməmişdir.**

   **Kamal Talıbzadə**
   **Ədəbiyyatşünas, professor**

4. **Zeynal Xəlilin şeirləri nədən bəhs edirsə-etsin, onlarda oxucu hər şeydən əvvəl büllur ideya və şeiriyyəti görür.**

   **Sona Xəyal**
   **AMEA-nın böyük elmi işçisi**

Xalq şairi Zeynal Xəlilin 100 illik yubileyi ilə bağlı F.Köçərli adına Respublika Uşaq Kitabxanasında şeir müsabiqəsinin keçirilməsi də nəzərdə tutulmuşdur. Beləki, kitabxanaçı bir sıra məktəblərə şeir müsabiqəsinin keçirilməsi haqqında elan verir. Şeir Müsabiqəsinin keçirilməsində məqsəd oxucular arasında mütaliənin təbliği və onların bilik dairəsinin genişləndirilməsi, həmçinin istedadlı uşaqların aşkarlanmasıdan ibarətdir. Şeir müsabiqəsi F.Köçərli adına Respublika Uşaq Kitabxanasının oxu zalında keçirilir. Bir neçə məktəb bu müsabiqədə iştirak edə bilər. Müsabiqənin şərtləri ilə kitabxanaçı oxucuları tanış edir. Bu müsabiqədə yaxşı şeir demək , şeiri duymaq bacarığı olan istedadlı oxucular juri tərəfindən müəyyənləşdirilib 1, 2, 3, 4, 5 yerlər arasında sıralanırlar. Müsabiqədə Zeynal Xəlilin " Şair olmaq istədim mən", "Dəniz olmaq istədim", "Ata və oğul" və bir çox şeirləri oxucular tərəfindən səsləndirilə bilər. İndi isə oxucuların ifasında Zeynal Xəlilin **"Şair olmaq istədim mən!** adlı şeirini dinləyək.

**Şair olmaq istədim mən...**

**Əynimdə boz, köhnə şinel.**

**Dörd yanımda ölüm və qan,**

**Məni əsgər etdi zaman!...**

**Şair deyil, əsgər oldum...**

**Tarixlərə əsgər kimi**

**Yazılacaq mənim adım,**

**Mən bu adı daşımaqdan**

**Yorulmadım, usanmadım.**

**Bu ad mənim şöhrətimdir!**

**Bu ad mənim qüdrətimdir!.**

**Şair deyil, əsgər oldum...**

**Ömrüm boyu səngərlərdə**

**Keçə-keçə od içindən:**

**Bu yaxşıdır!  Dedim bəzən.**

**Əsgər oldum bu susmayan,**

**Qasırğalı və tufanlı,**

**Daim belə dəliqanlı**

**20-ci əsrimə mən!**

**Süngü –mənim qələmimdir!**

**Cəbhələrdə yağıların**

**Ordusunu poza-poza,**

**Öz şeirimi mən onların**

**Sinəsinə yaza-yaza**

**Yollar açdım səadətə,**

**Yollar açdım ilk bahara**

**Əsarəti, fəlakəti**

**Boğazından çəkib dara!**

**Qulluq etdim mən əsrimə**

**Hər gün mahnı deyə-deyə;**

**Bəzən onun kürəyinə**

**Zopa ilə döyə-döyə!..**

**Şair deyil, əsgər oldum...**

**Əsgər oldum Vətənimə,**

**Əsgər oldum partiyama,**

**Əsgər oldum yaraşıqlı**

**Və möhtəşəm bu dünyama!**

**Qılınc vurub qorudum mən**
**Azadlığı, səadəti**
**Ulduzdakı gözəlliyi,**
**İnsandakı məhəbbəti.**

**Mən qorudum səhərlərin**
**Döşündəki bu gümüşü,**
**Mən qorudum körpələrin**
**Üzündəki bu gülüşü;**

**Mən qorudum qardaşlığı,**
**Ülviyyəti qorudum mən;**
**Zamandakı bu sürəti,**
**Kamaldakı bu mənanı,**

**Bu vüsəti qorudum mən!..**
**Bu iş uzun çəkəcəkdir!..**
**Səngərdə də məzuniyyət,**
**İstirahət yoxdur mənə!..**

**Əgər ölsəm...Dostlar, nə qəm**
**Sabah qalxıb, bu dünyaya**
**Yenə əsgər gələcəyəm!..**

**Şair olmaq istədim mən...**
**Əynimdə boz, köhnə şinel,**

**Dörd yanımda ölüm və qan**

**Məni əsgər etdi zaman!..**

Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri olan Zeynal Xəlil yaradıcılığını daha yaxından izləmək üçün F. Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlər siyahısına səhnəcik də artırmaq olar. Səhnəciyi keçirməkdə məqsəd orta və böyük yaş oxucular arasında Zeynal Xəlilin poema və pyeslərini, sevdirməkdən ibarətdir. Zeynal Xəlilin "Şairin yuxusu" adlı dramatik poemadan kiçik bir səhnəcik hazırlanır. Səhnəyə şair Nizami, Məhəmməd-onun oğlu, Xaqani-şair, Nizaminin dostu, Axsitan-Şirvan şahı, Pərviz-Şahın vəziri və başqalarının rollarını ifa edən oxucular daxil olur.

**Qədim Gəncə. Nizaminin evi. Bir payız səhəridir. Evin qabağında bir bağ. Eyvandan bağa pilləkən enir. Ağacların yarpaqları saralıb. Zaman baba bağı seyr edir. Onun bir əlində bel, o biri əlində isə bir səbət var. Səbətdə heyva, nar var. O, qızı Aydoğdunu səsləyir.**

**Zaman baba:**

**Aydoğdu!..Aydoğdu!...**

**Aydoğdu bağın başqa tərəfindən gəlir**

**Aydoğdu:** Nə var, ay baba?

**Zaman baba:** Qızım, oyanıbdır bütün el, oba,

Hamı bağlardadır...bu heyva, bu nar,

De bizim Gəncədən başqa harda var?

Əyilib torpağa səcdə edən kəs,

Dünyada ehtiyac, yoxsulluq bilməz...

Ala bu səbəti...

Aydoğdu səbəti alır.

**Götürüb bir-bir nara, heyvaya baxır.**

Məhəmməd hanı?

**Aydoğdu:** Yəqin şeir yazır.

**Zaman baba:** İnsanın canı

Zəhmətlə, havayla bərkiyir müdam,

Zəhmətsiz nə söz var, nə də ki, ilham...

Ona de ömrünü verməsin bada,

Şeir Nizamiylə bitdi dünyada...

**Aydoğdu:** O gözəl oğlandır...kamalı dərin,

Öyrənir sirrini səyyarələrin...

**Zaman baba:** Bilirəm...O, sənə deyir sözünü,

O səndən çəkməyir bir an gözünü.

Sən də səyyarəsən?..

**Aydoğdu:** Baba, can baba,

Ey mənə hamıdan mehriban baba!

**Zaman baba:** Nə var, ceyran qızım?..Nə var-belə sən,

Yenə də dil açıb bağda ötürsən?!

**Aydoğdu:** Mənə şeir qoşub Məhəmməd o gün,

Ağlımı başımdan alıbdır bütün!..

**Zaman baba:** Əlbəttə...əlbəttə..şair oğludur,

Onun da sinəsi sözlə doludur...

**Kiçik pauza...**

**Aydoğdu:** Amma, İlyas baba kefsizdir yaman...

**Zaman baba:** Qızım, dağ başına yığılar duman.

Şairlik həm sevinc, həm də qəmdir,

O başqa bir dünya, başqa aləmdir!

**Kiçik pauza...**

Yenə sapsarıdır bağçalar, bağlar,

Düşür budağından bir-bir yarpaqlar...

Bu dünya belədir...keçdikcə zaman,

Ömrün budağından qopur hər insan

Mən gedim işləyim. Bir arzum var: sən

Dünyada daha xoş günlər görəsən!..

**Zaman baba əlində bel gəlir. Aydoğdu əlindəki səbəti pilləkənə qoyur. Getmək istərkən Məhəmməd eyvanda görünür.**

**Məhəmməd:** Aydoğdu!..Aydoğdu!..Getmə, bir dayan,

Hər zaman fikrimdə bir sənsən, inan!..

**(O, pilləkənlə aşağıya enir)**

**Aydoğdu:** Şeirmi yazırdın?

**Məhəmməd:** Yazırdım...fəqət Çətindir qazanmaq şeirlə şöhrət!..

**Aydoğdu:** Odur ki, ömrünü vermə sən bada,

Şeir Nizamiylə bitdi dünyada!

**Məhəmməd:** Elədir, Aydoğdu...sözlərin haqdır,

Vaxtı boş keçirmək məncə nahaqdır...

Münəccim olaram...ya da ki həkim,

Onda sənətimə xor baxmaz heç kim...

**Nizami çiynində ləbbadə eyvana çıxır. O, asta addımlarla pilləkənlə bağa düşür. Məhəmmədin, Aydoğdunun yanına gəlir. Onların alınlarından öpür.**

**Nizami:** Mənim balalarım!..Xoşbəxt olun siz,

Ürəkdə qalmasın bir istəyiniz!..

**(O, bağı seyr edir. Kiçik pauza)**

Payız nə gözəldir!..Min neməti var,

Əyir budağını bağda heyva, nar!

Yarpaqlar tökülür yerə sapsarı,

Ağarır uzaqda dağların qarı!..

Bir də fəlakətlər olmasın deyə,

Kəpəz keşik çəkir orda Gəncəyə.

Susub Gəncəçayı!..

**Məhəmməd:** Neçin belə sən,

Son günlər gözümə bir çür dəyirsən?

**Nizami:** Çoxdan Xəqanidən bir xəbər yoxdur,

Ömür sona yetir..dərd isə çoxdur...

Ah görüm zamanın kor olsun gözü,

Onun da qəlbində qaldı hər sözü!..

Orda bir xaqan var, burda bir xaqan,

Gəncə bir zindandır, Şirvan bir zindan!..

100 illik yubileyini qeyd etdiyimiz şair, dramaturq Zeynal Xəlil yaradıcılığına bir daha müraciət etmək məqsədilə F.Köçərli adına Respublika Uşaq Kitabxanasında kitab müzakirəsinin keçirilməsi də nəzərdə tutulmuşdur. Kitab müzakirəsinin keçirilməsində məqsəd

oxucuları Zeynal Xəlil yaradıcılığı haqqında AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitunun böyük elmi işçisi Sona Xəyalın 2010-cu ildə "Bakı" nəşriyyatı tərəfindən nəşr etdirdiyi "Zeynal Xəlil" (yaradıcılığı əsasında) adlı kitabla tanış olmaqdan ibarətdir. Kitab əsasən Zeynal Xəlilin 90 illik yubileyinə ithaf olunub. İlk öncə kitabxanaçı Zeynal Xəlilin həyat və yaradıcılığı haqqında oxuculara bir qədər məlumat verir.

Əziz oxucular! Şairi tanımaq üçün bəzən onun əsərləri kifayət eləmir. Hərdən gözündən qaçan bir şey olur və ya sənə çatmayan hiss-duyğu olur. Hər bir şairin tərcümeyi-halı, yaradıcılığı haqqında yazılan məqalələr, kitabları haqqındakı resenziyalar onun hərtərəfli səciyyələndirilməsinə kömək edir. Zeynal Xəlilin ömrü qısa olsa da, ömür yoluna nəzər salanda, dolu bir həyatla qarşılaşırsan.Teymur Əhmədovun "Azərbaycan yazıçıları" kitabından şairin 1914-cü il, aprelin birində anadan olduğu, atasını itirdiyindən, qardaşlarının himayəsində yaşadığı, Gəncədəki yeddillik məktəbi bitirdiyi, pedaqoji fəhlə fakültəsində, daha sonra Azərbaycan Dövlət Pedaqoji instututunda təhsil aldığı aydın olur. Onun şeirləri "Gənc işçi", "Ədəbiyyat qəzeti", və "Hücum" yurnallarında mütəmadi dərc olunmuşdur. Zeynal Xəlilin "istək" adlı ilk şeirlər kitabı 1936-cı ildə çap olunmuşdur.

Şair Gəncədə doğulsa da, təhsil illəri, poeziyadakı uğurları Bakı ilə bağlıdır. Qələmdən ayrılmayan şairin xüsusən müharibə dövründə Azərbaycan ədəbiyyatına bacarığı müqabilində əsərlər vermişdir. Müharibə dövründə çap olunmuş əsərlərin əksəriyyəti dövrə aid olsa da, şairin lirikasında incə duyğuların tərənnümünə də yer ayrılmışdır. Zeynal Xəlil lirikası mövzusuna görə çox rəngarəngdir. Onun şeirləri nədən bəhs edirsə-etsin, onlarda oxucu hər şeydən əvvəl büllur ideya və şeiriyyəti görür.

Zeynal Xəlili görənlər, tanıyanlar bu gün də onun haqqında müsbət fikirlər söyləyirlər. Zeynal müəllimi ədəbiyyata ötəri bir həvəs, gəldi-gedər bir hiss gətirməmişdi. Qəlbən, ruhən şair olan Zeynal Xəlil ədəbiyyata böyük ideallar, sağlam məslək, yüksək amallar gətirmişdi. O

bütün rəyi, bütün ilhamı ilə doğma torpağına bağlı insan idi. O, heç vaxt şeirdə, sənətdə şöhrət axtarmırdı. Təbiətən təvazökar və sadə bir insan olan Zeynal Xəlil şeirə, ədəbiyyata, xalqa, vətənə bəslənən böyük, güclü məhəbbətin ifadə forması kimi baxır, incəsənəti məhz belə partiyalı mövqedən qiymətləndirirdi. Ona görə də Zeynal Xəlilin yaradıcılığını Vətənimizin, xalqımızın həyat və mübarizəsindən ayrı təsəvvür etmək mümkün deyildir. Tədbirin sonunda kitabın müəllifi Sona Xəyal öz hiss və duyğularını oxucularla bölüşür.

> Sağ qalsaydı Zeynal Xəlilin 100 yaşı olacaqdı. Ömür yoluna nəzər salanda, mənə elə gəldi ki, elə 100 illik ömrü vərəqlədim. Zeynal Xəlil Səməd Vurğunun səsini eşidən kimi, elə bildim ki, mən də onun səsini eşidirəm. Elə bildim ki, bütün Zeynal Xəlil haqqında fikir deyən şairlərin, yazıçıların, tənqidçilərin səsini eşidirəm. Sevgi də gördüm, nifrət də. Giley də eşitdim, tərif də. Eləcə də Zeynal Xəlilin həmkarlarına olan münasibətində fərqli çalarlar duydum. Bəlkə bu da insan deyilən bir varlığın həqiqi səsidir. Hamını eyni cür görmək olmur. Hamını eyni məhəbbətlə sevmək olmur.
>
> Poeziya bir gülşəndir, burada müxtəlif güllər bitir. Biri qızıl gül dərir, biri qərənfil, biri zanbaq, biri nərgiz...Birinin dahi saydığını o birisi bəyənmir, birinin sevdiyinə digəri nifrət edir. Şair qəlbinin anlaşılmaz duyğuları olur, aldadıcı hissləri olur.
>
> Mən Zeynal Xəlil bağçasından nə dərdim, dərdiklərimi hansı rəngdə, hansı çalarda gördüm. Həmin çiçəklərdən necə tablo yaratdım, bilmirəm. Sadəcə onu bilirəm ki, bir çoxları kimi nifrətlə, qəzəblə, kinlə yaşamadım, məhəbbətlə, hörmətlə yaşadım və öz yaşantılarımı yazdım...

**Var üçün, dövlət üçün,**

**Ad üçün, şöhrət üçün**

**Qaraya ağ,**

**Ağa qara**

**Söyləməyin, insanlar, insanlar,**

**Insanlar!**

**Özümə xoşdur deyib,**

**Qəlbinizdə ədavət,**

**Üzünüzdə təbəssüm,**

**Başqasını siz bədbəxt**

**Eyləməyin, insanlar, insanlar!**

**Böhtan, yalan nədir ?**

**İnanmayın buna siz,**

**Qoy hər zaman hər yerdə**

**Alnınız açıq olsun.**

**Ürəyiniz tərtəmiz!**

Elə bu baxımdan Zeynal Xəlil yaradıcılığına gəlin bir daha müraciət edək. F.Köçərli adına Respublika Uşaq kitabxanasında keçirilən tədbirlərin içərisində ən maraqlı və yaddaqalanı ədəbi-bədii gecə və ya poeziya gecəsidir. Belə bir tədbirləri müxtəlif başlıqlar altında keçirmək olar. Məsələn,**"XX əsr Azərbaycan poeziyasının görkəmli simalarindan olan Zeynal Xəlil",** adlı ədəbi-bədii gecəyə kitabxanaçı bir ay qabaqcadan hazırlaşır. Kitabxanaçı tədbirə bir çox şair və yazıçılarla yanaşı ədəbiyyat müəllimlərini, kitabxanaçıları dəvət edə bilər. Tədbirin ədəbi hissəsi çıxış və məruzələrlə başlanır. Bədii hissədə bir çox şeirlərindən parçalar və onun sözlərinə yazılmış mahnılar səsləndirilir. Səhnə gül dəstələri ilə bəzədilir. Xalq şairi Zeynal Xəlilin portreti səhnənin divarından asılır.

Tədbir Sözləri Zeynal Xəlilə, musiqisi Qəmbər Hüseyliyə aid olan "Ay işığında" mahnısının sədaları ilə başlayır. Aparıcılar səhnəyə daxil olur.

**I aparıcı:** Salam əziz və hörmətli qonaqlar! Sizləri Zeynal Xəlil yaradıcılığı ilə bağlı keçirilən tədbirdə görməyimizə çox şadıq. Hamınızı ürəkdən salamlayır və tədbirimizi açıq elan edirik.

Bu gün bizi Zeynal Xəlildən 40 ilə yaxın bir vaxt ayırır. Zeynal Xəlilin şeirlərini oxuyanda onun bu ünsiyyətdə işıqlı,

mübariz, müdrik və mehriban obrazını görürük. Onu yaxından tanıyanlar yaxşı bilirlər ki, Zeynal Xəlil ürəyi ilə sənət arasında sərhədi, səddi olmayan bir şair idi. Öz hisslərini, düşüncələrini şeirlərinə hopduran, bununla da özünün mənəvi portretini əbədiləşdirən Zeynal Xəlil şeirlərinin birində yazırdı:

***Öləndə bir daşa çevirin məni***
***Vətən torpağında bozca bir daşa.***
***Mən yaxşı bilirəm tale deyəni:***
***Hər insan ömrünü vuracaq başa...***

Bu gün Zeynal Xəlil yaradıcılığını vərəqləyəndə onun həssaslığına, uzaqgörənliyinə və ötən əsrdə hansı bəlalardan, dönəmlərdən keçdiyindən xəbər tuta bilirsən. Bəzən insan yaşadığı zamanın rənglərini dəqiq seçə bilmir. Bəlkə də ona görə deyirlər ki, hər şeyi həll edən elə zamandır.

**II aparıcı:** Ədəbiyyatımızın, poeziyamızın zənginləşməsində ömrünü söz-söz əridən Zeynal Xəlilin az yaşaması da öz yaşıdları kimi dövrünün ağrı-acıları ilə bağlı idi. Həqiqətən də repressiya təkcə gülləədən, sürgündən, həbsdən ibarət deyildi. Repressiyanın bir oxu da mənəviyyata, daxili dünyaya gözə görünmədən tuşlanan ağır silahlardan betər idi. Elə bu səbəbdən də ötən əsrin bəlalarını çəkmiş insanlar həbs edilməsələr də, o dustaq həyatını evlərində, doğma insanlar arasında yaşadılar. Zeynal Xəlil azad, qəlbi inamla dolu, böyük şair idi.

***Mən şair olmaz idim bəlməsəydim mən əgər***
***Şeir olur döyüşdə süngülərə bərabər.***
***Mən şair olmaz idim deməsəydi babalar***
***Şeirdə də, sözdə də bir ordunun gücü var.***
***Şair də əsgər kimi səngərdə möhkəm durur,***
***Top vurmayan mənzili şeir vurur, söz vurur.***

Zeynal Xəlil şeirlərində elə bir işıq yandırıb ki, daim Günəşdən nur alır və sönmür. Yaradıcılığında həyat həqiqətlərinin min rəngi duyulan, insanlara həmişə əbədi

sevgi və sədaqətlə xidmət edən, şair dünyasını yaşatmaq üçün öz ömrünü girov qoyan Zeynal Xəlil poeziyamızın qüdrətli simalarından biridir. Belə insanların yaradıcılığı ilə bağlı müxtəlif tədbirlərin keçirilməsi, əsərlərinin təbliğ olunması, mahnılarının səsləndirilməsi vacibdir. Əsl şairlərin yaradıcılığı adətən xalqının taleyidir, bədii ensklopediyasıdır, bioqrafiyasıdır. Ötən əsrdə yaşayıb yaratmış Zeynal Xəlil kimi şairlərimizin tədqiq edilməsi, öyrənilməsi həm də Azərbaycan tarixinin müəyyən bir dövrünə işıq salması deməkdir!

***Biri dedi, şair sən***
***dostları unutmusan,***
***Və şöhrətdən, dünyadan***
***Səkkiz əlli tutmusan...***
***Güldüm, dedim mən ona,***
***Bunları vüerdim sana.***
***Mənə lazımdır ancaq***
***qızıl günəş, qara torpaq,***
***Gülüş dolu bir cüt göz,***
***Və bir kəlmə şirin söz!***

## ƏDƏBİYYAT SİYAHISI:

1. Zeynal Xəlil. Seçilmiş əsərləri. Bakı.:“Öndər nəşriyyat”, 2004.-264 s.
2. Zeynal.Xəlil. Dünya, ey gözəl dünya. Bakı.: Gənclik, 1975.-203 s.
3. Zeynal Xəlil. Əsrim, taleyim mənim. Şeirlər və poemalar. Azə Bakı.: Azərnəşr, 1978.- 251 s.
4. Zeynal Xəlil. Sevdiyim rəng. Şeirlər. Bakı.: Gənclik, 1970.-123 s.

# Haqqında:

X. Sona Mədəniyyəti, incəsənəti yaşadanlar. Kitab ölməz bəstəkarımız Üzeyir Hacıbəyovun yubileyinə ithaf olunur. Bakı.: MBM, 2010. - 99 s.

H. Tahirə. Sona Xəyal "Müasirlərim" Bakı.: MBM, 2011. - 64 s.